bazasının möhkəmləndirilməsi, müasir avadanlıq və texniki vasitələrlə təchiz olunması, kadr tərkibinin keyfiyyətcə yaxşılaşdırılması ixtisasartırma tədbirlərinin yeni forma və məzmunda təşkilinə əlverişli şərait yaratmışdır".

Azərbaycan təhsil sistemini dünya standartlarına uyğunlaşdırmaq üçün "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" adlı sənəd xüsusi əhəmiyyət kəsb edir. Həmin sənədin təhsil prosesinə tətbiq olunması üçün Azərbaycan Müəllimlər İnstitutunun ixtisasartırma təhsili sahəsində çox böyük işlər görülür. Belə ki, "İbtidai təhsilin pedaqogika və metodikası" ixtisası üzrə təhsil alan IV kurs tələbələrinə hər il təlimin tətbiqinə aid 10 günlük seminarlar keçirilir və yekunda onlara xüsusi sertifikatlar təqdim edilir.

Ali məktəb müəllimlərinə hər dərs ili 2 çağırış olmaqla 3 aylıq ixtisasartırma təhsili təşkil olunur. Bu təlimlərdə keçirilən mühazirələrə daha yüksəkixtisaslı kadrlar cəlb edilir. Buraya AMEA-nın müvafiq əməkdaşları, Təhsil Nazirliyinin aparıcı mütəxəssisləri, Təhsil Problemləri İnstitutunun və ali təhsil müəssisələrinin tanınmış alimləri dəvət olunurlar.

Artıq 2010/2011-ci dərs ilindən başlayaraq Azərbaycan Tibb Universitetinin rəhbərliyinin təşəbbüsü ilə hər ay Tibb Universitetində çalışan 25-30 nəfər əməkdaş 30 günlük olmaqla institutumuzda "təhsilin əsasları" fənni bazasında pedaqogika və psixologiya fənlərini öyrənirlər. Təlimin sonunda onlara sertifikatlar verilir. Ümumiyyətlə, hər dərs ilində Azərbaycan Müəllimlər İnstitutu və onun 11 filialında 13-14 min nəfər müəllim əlavə təhsilə cəlb olunur.

Əlavə təhsil günün tələbidir. Təkcə onu xatırlatmaq kifayətdir ki, 2000-ci ildən bəri Azərbaycanda təhsilin inkişafı ilə bağlı 17 dövlət proqramı qəbul edilib və 30 innovasiya müəyyənləşdirilib. Bütün bu məsələlərin öyrənilməsi və tətbiq edilməsi üçün əlavə təhsil müəssisələrinin rolu olduqca böyükdür.

Rəyçi: dosent A.Abdullayev

İstifadə edilmiş ədəbiyyat

1. Mərdanov M. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009.

2. Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı: Təhsil, 2005.

3. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.

4.Məmmədzadə R. Təhsilin əsasları-yeni problemlər, yeni münasibətlər// Azərbaycan məktəbi, 2010, №3.

Р.Азизов

Требования дня

Резюме

Работа усовершенствовония учителей в этом направлением способствует развитию интеллектуального потенциала и повышения качества учебы, что показывает важную роль дополнительного образования в этой сфере.

R. Azizov

Demand of the Day

Summary

Azerbaijan education system is integrated to world education and new initiatives, innovations are put forward and new researches carried out in these process. Great attention is paid to the development of intellectual potentials. Additional education has great role in these matters.

Qayğı və diqqət artır

Müstəqil Azərbaycanın dövlət siyasətində əhalinin sosial müdafiəsinin gücləndirilməsi, onun həyat səviyyəsinin yüksəldilməsi əsas prioritet sahələrdən biridir. Ölkədə yaradılan sosial sfera güclü dövlət, yüksək rifah məqsədlərinə yönəlmişdir.

Əhalinin maddi rifahının daha da yaxşılaşdırılması, sosial sahədə qazanılan uğurları yeni zirvələrə doğru istiqamətləndirilir. Bu məqsədlə ölkəmizdə təhsilə ayrılan vəsaitlər ildən-ilə artırılır. Təhsil bütün cəmiyyətlərdə insan həyatını keyfiyyətcə yaxşılaşdırır, ona daha sağlam, məhsuldar, xoşbəxt həyat qurmağa rəvac verir. Dövlət büdcəsində təhsilə ayrılan vəsaitlər isə, təbii ki, təhsil işçilərinin əməyinin keyfiyyətli olmasına xidmət edir. Təsadüfi deyildir ki, hazırda dövlət büdcəmizdə təhsil xərcləri çəkisinə görə ilk yerlərdə dayanır.

Müqayisə üçün deməliyik ki, hətta bir sıra inkişaf etmiş ölkələr dövlətin maliyyə problemlərini həll etmək üçün əhalinin sosial rifahına ayrılan vəsaitlərin kəsilməsindən çəkinmirlər. Bir çox ölkələrdə əməkhaqqı, pensiya aşağı salınır, vətəndaşların pensiya yaşları artırılır. Ölkəmizdə isə Prezidentin qeyd etdiyi kimi əhalinin əmək haqqı, pensiya və digər sosial ödənişləri davamlı şəkildə çoxaldılır.

Aydındır ki, təhsilimizə göstərilən qayğı və diqqət son illərdə daha aktual problemlər cərgəsinə keçmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci ilin dekabr ayında verdiyi sərəncamların əsasını dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq təşkil edir və bu da təhsilimizin inkişafına yüksək stimul yaradır. Təsadüfi deyildir ki, bu gün Azərbaycan təhsil sahəsində islahatçı ölkələrdən biri kimi tanınır. Təhsilimizin məzmunca yeniləşməsi, onun maddi-tədris bazasının möhkəmləndirilməsi sosial sferanı gücləndirir. Bunlar isə bugünkü vəziyyət haqqında aydın təsəvvür yaradır: sosial sahədə bizim siyasətimiz uğurla davam etdirilir.

Təhsilimizin bir qolu olan pedaqoji mətbuatımız da öz inkişafının yeni mərhələsini yaşayır. Dövlətimizin mətbuata qayğı siyasəti mənəviyyatımızın yeni keyfiyyət müstəvisinə qədəm qoymasına şərait yaradır. Azərbaycan Prezidentinin 2008-ci il 31 iyun tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə bir dəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" Sərəncamları da göstərir ki, Azərbaycanda mətbuata, o cümlədən pedaqoji mətbuata dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Məhz bunun nəticəsidir ki, 90 ilə yaxın ömrü olan "Azərbaycan məktəbi" jurnalı da öz fəaliyyətini normal şəkildə davam etdirir. Jurnalın ildə 6 nömrəsi çapdan çıxır və abunə qaydası ilə yayılır. İndi tək-tək məktəblər olar ki, "Azərbaycan məktəbi"nə abunə yazılmasın. Bu da ilk növbədə onun nəticəsidir ki jurnala Təhsil Nazirliyi tərəfindən lazımi maliyyə vəsaiti ayırır, ona ardıcıl qayğı göstərir. 2009-cu ildə "Azərbaycan məktəbi" jurnalının 85 illiyi qeyd olunmuş, onun fəaliyyət sahəsi xeyli yaxşılaşdırılmışdır. Jurnalın redaksiya heyətinin 5 üzvü Prezidentin fərdi təqaüdçüsüdür. Jurnalda Azərbaycan MEA-nın həqiqi və müxbir üzvləri, ali məktəb rektorları, tanınmış pedaqoq və psixoloqlar, RTŞ müdirləri, orta ixtisas və ümum-

təhsil məktəb direktorları, qabaqcıl müəllimlər müntəzəm çıxış edirlər. İlin ən yaxşı tədris müəssisələrinin iş təcrübəsi bu jurnalda geniş işıqlandırılır.

İndi jurnalımız Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir. Jurnal akademik M.Mehdizadə mükafatı laureatı adına layiq görülmüşdür. Ötən əsrin 90-cı illərinin əvvələrində "Azərbaycan məktəbi"nin düşdüyü ağır vəziyyət hamının yadındadır. O zaman jurnalın ildə bir və ya iki nömrəsi ancaq çap üzü görürdü. Bəzi rəhbərlərin laqeydliyi üzündən jurnalın bağlanmaq təhlükəsi yaranmışdı. Lakin zaman öz sözünü dedi. İndi jurnalın maliyyələşdirilməsində heç bir problem yoxdur. Digər pedaqoji jurnallarımız kimi o da da səmərəli fəaliyyət göstərir. Bu da təhsil işçilərinə elmi yeniliklərlə, innovasiyalarla tanış olmaq üçün geniş imkanlar yaradır. Ümumiyyətlə, dövlətimizin təhsil sisteminin təkmilləşdirilməsi, təhsil işçilərinin maddi və mənəvi tələbatlarına diqqətin artırılması pedaqoji işçilərin qarşısında yeni-yeni vəzifələr qoyur, onlarda dövlətin müəyyənləşdirdiyi təhsil konsepsiyasının icrasında fəal iştirak edib, gənc nəslin, XXI əsr vətəndaşlarının yetişdirilməsində layiqli xidmət göstərmələri vəzifələrini müəyyənləşdirir. Bu sahədə başlıca rol oynayan pedaqoji mətbuat qarşısında təhsilimizin dünya təhsilinə inteqrasiyası, ölkə əhalisinin maarifləndirilməsi kimi vəzifələr qoyur. Qeyd etmək lazımdır ki, pedaqoji mətbuata münasibət heç də bütün ölkələrdə eyni vəziyyətdə deyildir. Məsələn, İngiltərə kimi inkişaf etmiş bir ölkədə nə "Azərbaycan müəllimi", nə də "Azərbaycan məktəbi" kimi ölkə miqyaslı bir mətbuat orqanı nəşr olunmur. Bizdə isə yuxarıda adı çəkilən qəzet və jurnallarla yanaşı "Təhsil", "Kurikulum", "Azərbaycan dili və ədəbiyyatı tədrisi", "Məktəbəqədər və ibtidai təhsil", "İnformatika, riyaziyyat və fizika tədrisi", "Təhsil və zaman", "Təhsil problemləri" kimi respublika miqyaslı qəzet və jurnallar nəşr edilir. Hər bir ali məktəbin özünün elmi əsərləri vardır. Söz yox ki, bunlar təhsil işçilərinin məlumatlandırılması ilə yanaşı onların tədqiqatçılıq vərdişlərinə də kömək edir. Müəllimlər jurnalist qələmini ilk dəfə pedaqoji mətbuat səhifələrində sınayırlar. Sevindirici haldır ki, böyük maarifçilik ənənələri olan Bakı, Gəncə, Sumqayıt şəhərləri, həmçinin Tovuz, İsmayıllı, Gədəbəy, İmişli, Neftçala, Qax, Şəmkir, Qəbələ, Qusar, Kəlbəcər və b. rayonların məktəbləri "Azərbaycan məktəbi" jurnalına ardıcıl maraq göstərir, onunla sıx əməkdaşlıq edirlər. Ümidvarıq ki, bütün rayonlar bu ənələrə sadiq qalacaqlar.

Pedaqoji mətbuata dövlət qayğısı oxucuları təhsilimizin inkişafı tarixində özünəməxsus mövqeyi olan mövcud ənənələrinin qorunub saxlanmasına hazırlayır və ölkənin elm-bilik bankının möhkəmlənməsinə kömək edir, təhsilimizin bir qolu olan pedaqoji mətbuatın işini müasir tələblər səviyyəsinə qaldırılmasına öz müsbət təsirini göstərir. Bu qayğı və diqqət isə ildən ilə artır.

Sveta Məmmədova
"Azərbaycan məktəbi"
jurnalının əməkdaşı

Kurikulum

Milli Kurikulumun tətbiqi və uğurlu nəticələr

Oqtay Məmmədov
Saatlı şəhər Səməd Vurğun adına 1 nömrəli tam orta məktəbin direktoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, əməkdar müəllim, Rusiya Federasiyası Pedaqogika və Sosial Elmlər Akademiyasının müxbir üzvü

Son illər təhsilin məzmunundakı dəyişikliklər, onun Avropa və ümumən dünyanın qabaqcıl təhsil sisteminə inteqrasiyası baxımından ölkəmizdə çox işlər görülmüşdür.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan təhsilinin inkişaf konsepsiyası və strategiyası möhtərəm prezidentimiz İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın sürətli inkişafına öz gözəl bəhrələrini verir.

Bu inkişaf Azərbaycanın sosial-iqtisadi sahəsinin bütün istiqamətlərində, xüsusən də təhsil sahəsində özünü göstərməkdədir. Davamlı olaraq aparılan islahatyönümlü tədbirlər təhsilimizin dünya təhsil sisteminə inteqrasiyasına yönəlmişdir.

Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Müstəqillik illərində təhsil siyasətinin əsas istiqamətlərini müəyyən edən "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı"nın da məqsədi dünya standartları səviyyəsində keyfiyyətli təhsil almağa imkan verən milli təhsil sistemin yaradılması olmuşdur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici təlim keyfiyyətinin obyektiv qiymətləndirilməsindən çox asılıdır.

Bu baxımdan 2008/2009-cu tədris ilindən I siniflərdə fənn kurikulumları tətbiq edilməyə başlanmışdır. Bununla bağlı məktəbin rəhbərliyi tərəfindən xeyli işlər görülmüşdür. Hazırlıq işlərini ardıcıl və sistemli aparmaq üçün yeni fənn kurikulumlarının tətbiqi ilə əlaqədar xüsusi fəaliyyət planı hazırlanaraq təsdiq edilmiş, müəllimlərin yeni fənn kurikulumlarına hazırlanması və kurikulum sahəsində peşəkarlığının artırılmasına sistemli iş kimi baxılmış, bu iş fəaliyyət planı şəklində həyata keçirilmişdir.

Buna uyğun olaraq məktəbin qabaqcıl müəllimləri ilə kurikulum sənədlərinin müzakirəsi, öyrədilməsi işi də sistemli təşkil olunmuş, irəli sürülmüş təkliflər metodbirləşmə yığıncağında ümumiləşdirilərək "Azərbaycan məktəbi" jurnalında və digər pedaqoji mətbuat orqanlarında dərc olunmuşdur.

Nəzərdə tutulan məsələlərin həyata keçirilməsi üçün fəaliyyət planında aşağıda göstərilən maddələr öz əksini tapmışdır.